## SƏNSİZLİK

Sənsiz yorulmaqdı həyat,
Boş verməkdi bütün arzulara.
Unutmaqdı ürəyində gülməyi,
Yaşamaq söz verməkdi
Sadəcə qayğılara.
Öyrənməkdi acılara sinə gərməyi.
Yağan buludlarla yağmaqdı,
Yay günündə donmaqdı,
Duyğularından özünü asmaqdı,
Alışmaqdı göz yaşının dilini bilməyi.
Kor olmaqdı gözəlliklərə,
Lal olmaqdı bağırmalara,
Yüyürə bilməməkdi gələcəyə.
Bilməkdi hər şeyi görməzdən gəlməyi...
Özünə susmaqdı, - haqlı suallarına.
Gülməkdi bəzən içinə saxladıqlarına.
Ölməkdi hər gecə qorxularına,
Alışmaqdı həyatı öz-özüylə bölməyi.
Unutmaqdı dünən etdiklərini,
Yaşamaqdı hər gün bildiklərini,
Atmaqdı hərdən sevdiklərini,
Çarə bilməkdi hər gün ölməyini.
Divarda olmayan rəsmindi ağlayan,
Ardından ata bilmədiyin sudur ağrıyan,
Qayğılarındı özündən qaçmaq
yollarını bağlayan,
Hər axşam qarşılamamaqdı gəlməyini...
Bir həzin bir kövrək nəğmədi həyat,
Yenilməkdi ölümə saatbasaat.
Sənsizliyi bağrına basıb bağırmaqdı,
İçin-için hönkürməkdi sevməyini.

* * *

Bu gün şeir yazmadım,
Ürəyim dolu qaldı.
Sağnan verdiklerimi,
Yenə də solum aldı.

Sual verdim Allaha,
Mən diriyəm, ya ölü?
İçim belə bəxtəvər,
Niyə ağrıyır çölü?

Sən ki görürsən, Tanrım,
Qiblənə dayanmışam.
Sənə min sual verib,
Tək bir cavab almışam.

Məni çağır yanına,
Bir ağ don geyim gəlim.
Uduzmuşam ömrümü,
Mərcimi verim gəlim.

* * *

Daha nə yazım var, nə yaz günəşim,
Yazımdan adlayıb qışıma keçdim.



Səni ürəyimdə mənsiz saxladım,
İçimdən adlayıb dışıma keçdim!

Hələ ürəyimə verəcəyin var,
Sənə yüz gileyim, deyəcəyim var,
Qal orda gör necə görəcəyin var,
Hər gün bir il qədər yaşıma keçdin.

Sənə özüm qədər dəyər vermişəm,
Sənə sevgi adlı səhər vermişəm,
Elə göz yaşımdan bəhər vermişəm,
Gözümdən yol edib başıma keçdin.

İnanıb uzatdım yara əlimi,
Sən qısa elədin uzun dilimi,
Yolunda ağartdım qara telimi,
İndi də adlayıb qaşıma keçdin.

Daha nə yol qalıb, nə də iz qalıb,
Daha yaşamağa bu payız qalıb,
Məzarım qazılıb, vaxtım az qalıb,
Ömürdən inciyib daşıma köçdüm!

* * *

Mən səni görəndə quruyar dilim,
Əllərim titrəyər, ürəyim əsər.
Yol olmaz geriyə qayıdım deyə,
Göz yaşım danışar sözümü kəsər.

Mən saçı ağaran uşaq kimiyəm,
Bir az böyüt məni, bir az öy məni.
Elə bir nağıl yaz dünyama mənim,
Bir az yer tanısın, bir az göy məni.

Səndə bir mələksən göydən gəlmisən,
Gəl qarış ruhuma həsrətim gülsün.
Şeytanı mələkdən bu bol dünyanın,
Bir Aləm adında mələyi ölsün.

* * *

Bu gün çox darıxır evim eşiyim,
Hər tərəf üstümə-üstümə gəlir.
Od tutur sevincim alışır, yanır,
Dərdim qol götürüb tüstümə gəlir.
Gah atam dolanır başıma bu gün,
Gah anam yaş olub gözümdən gəlir.
Ruhlar əsir alıb, ruhumu bu gün,
Min illik həsrətim sözümdən gəlir.
Bir arzu ruhumu didib-dağıdır,
Bir istək içində sözüm üşüyür.
Bir günah gözümdən düşür astaca,
Yanağım üşüyür, gözüm üşüyür.

Aləmin sirrini dörd divar bilir,
Bir də özü bilir nə çəkdiyini.
Hər gün ürəyinə bir toxum əkir,
Bircə Allah bilir nə əkdiyini.

* * *

Sabaha sağ çıxardım,
Gecə ölən ruhumu.
Sənə bağışlayıram,
Sənə gələn ruhumu.

Hərdən bir az əzizlə,
Azca ürəyinə bas.
Mən səni incidəndə,
Məni ürəyindən as.

Al ruhumu böl iki,
Biri sən ol, biri mən.
Sən ömürlük möcüzəm,
Mən də sənin sirrinəm!

Gah yarala, gah da sev,
Gah da ürəyimi al.
Günahkarsam yanında,
Dayanacam dili lal.

Mən sənin əmanətin,
Üzərimdə tir-tir əs.
Qoyma ölüm sevdiyim,
Ömrümü çiçəklə kəs.

Görsən mənsiz ölürsən,
Məni çevir başına.
Ruhum bir mələk kimi,
Qoy dolansın başına!

Bir gün köçüb gedersəm,
Sən Aləmi unutma.
Yağış kimi yağ mənə,
Məzarımı qurutma.



Aləmzər Sadıqqızı